# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 119-07/S nömrəli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarında və “Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikası Komissiyasının tərkibi”nin təsdiq edilməsi haqqında” 2024-cü il 11 oktyabr tarixli 103s nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 03 iyun tarixli 119-07/S nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənddən “Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi,” sözləri çıxarılsın;

1.2. Həmin Qaydaya əlavə - “Elektron anketin forması” üzrə:

1.2.1. 19-21-ci hissələrdə “Tibb Müəssisələrinin İdarəetmə Birliyi” sözləri “Səhiyyə Nazirliyi” sözləri ilə əvəz edilsin;

1.2.2. 30-cu, 31-ci və 35-ci hissələrdən “və Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” sözləri çıxarılsın.

2. “Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikası Komissiyasının tərkibi”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 oktyabr tarixli

103s nömrəli Sərəncamının 1-ci hissəsinin "Komissiyanın üzvləri:" bölməsinin səkkizinci abzası ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, " 16 " " iyul " 2025-ci il

№ 40